# MÖVZU 13. QAFQAZ FAUNASI

Fauna etibarilə çox müxtəlifdir. Şimali Qafqazın qaratorpaq qərb stepləri çeşid ot bitkiləri ilə örtülü olub öz florası və faunasına görə Qara dəniz- azov steplərinin bir hissəsini təşkil edirlər.Şimali Qafqazın şərq stepləri səhra xarakterli olub öz florası və faunasına görə Qazaxstana aiddir, abşeron yarımadasını, Kür çayının aşağı və orta axını boyu olan aranlıqları və Araz çayının ensiz aranlığını əhatə edən Şərqi Zaqafqaziya stepləri, Orta Asiyanın cənub hissələrinə oxşardırlar.Qafqazın qalan hissəsi də coğrafi nöqteyi- nəzərdən müxtəlifdir. Bu həm tarixi, həm də indiki səbəblərlə izah edilir, belə ki, Qafqazda həm subtropik tipli çeşid meşələr, həm sərt iqlimli dağ stepləri, həm iynəyarpaqlı meşələr, həm də həmişə qar ilə örtülü olan hündür dağlar vardır.

Qafqazın faunası bütünlüklə olduqca müxtəlif heyvan qruplarına aid olan bir sıra xarakter endemik növlərin olması, Qərbi Avropa və Asiya formalarının qarışması və bu dağların müvafiq en dairələrində geniş yayılmış bir çox heyvanların olmaması ilə xarakterizə olunur. Qafqaz üçün ən mühüm endemiklər bunlardır: 3 dağ keçisi növü- Severtsov dağ keçisi,Qafqaz dağ keçisi və Dağıstan dağ keçisi, prometey siçanı, olduqca xüsusiyyətli Qafqaz tetrası, Qafqaz kəkliyi(uları),Zaqafqaziya sincabı, zaqafqaziya gürzəsi, Qafqaz quru qurbağası,qafqaz salamandrı,qarapaça. Meşə pişiyi, nəcib maral. Avropa cüyürü, qar siçanı,və indi qırılıb tələf edilmiş vəhşi öküz.Burada yayılmış Asiya heyvanlari isə bunlardır: pələngş çaqqal, leopard, qırqovul və bir sıra başqa quşlar.Nəhayət, Qafqazda bir sıra növlər yaşamırlar ki,onlarin burada olması güman edilə bilərdi,adi sincab, ağ dovşan,marmotlar, otyığanlar, qornstoy( bu hryvan yalnız Şimali Qafqazda çox az təsadüf olunur), tundra kəkliyi.

Öz faunası etibarilə Qafqazın daha çox hissəsini Böyük Qafqaz sıra dağlarə təşkil edir ki,bunlar bütün Qafqaz bərzəxini Qara dənizdən Xəzər dənizinə qədər çəpinə kəsir. Bu dağlar ətraf hissələrində çox hündür olmayan təpələr, orta hissələrində isə həmişəlik qarla örtülü olan çox hündür sədlər şəklindədirlər.Qafqaz sıra dağlarının demək olar ki,bütün şimal ətəkləri meşələrlə qrtülmüşdür, ancaq Qafqazın şimal-qərbində mbu meşələr daha çox əl dəyməmiş halda qalmışdır.Əksinə şərq hissəsində meşə azdır və demək olar ki, bytyn Dağıstanda heç meşə yoxdur. Yuxarıda Qafqaz üçün saydığımız endemik nğvlərdən üç dağ keçisi növü, promotey siçanı, Qafqaz fır kəkliyi yalnız Böyük Qafqaz dağlarının endemikləridir.Qafqaz tetrası isə həm burada, həmdə Kiçik Qafqaz dasğlarinda yaşayır.

Kür çayı sisteminin yuxarı hqvzəsini və Bqyük Qafqaz dağlarının orta hissəsinin cənub ətəklərini əhatə edən Mərkəzi Zaqafqaziyanın daha çox xarakter florası enliyarpaqlı meşədir.Bu meşələr bir zaman həmin yerləti başdan-başa tutmuşdu. Ancaq indi bir çox yerlərdə qırılmışdır. Burada yaşayan və Mərkəzi Zaqafqaziya üçün endemik olan ən xarakter heyvanlar Zaqafqaziya sincabı və Qafqaz salamandrıdır.

Cənubi Zaqafqaziya Kiçik Qafqazın canub ətəklərini əhatə edir və əsas etibarilə dağlıq stepdən ibarətdir, ancaq dərin dərələrdə enliyarpaqlı meşələr vardır ki, bunlar insan tərəfindən xeyli qırılmışdır..Qafqazin ancaq bu hissəsində yaşayan

kiçik Asiya muflonu və Kaspi uları xüsusilə xarakterdirlər.Bqyük Qafqaz sıra dağları və Mərkəzi Zaqafqaziya əcl Qafqaz faunasına malik olduqları halda, Cənubi Zaqafqaziya zoocoğrafi cəhətdən Qərbi Asiya faunasina keçid təşkil edir.

Aralıq dənizi flora və faunasıQara dəniz sahilləri boyunca və Rion çayı hövzəsində daha aydın nəzərə çarpır.Bütün bu sahə rütubətli və mülayim iqlimli bi sahə olub tərkibində çoxlu miqdarda həmişə yaşıl ağaclar olan çeşid ağac bitkiləri ilə qrtülmüşdür.Ancaq zəngin və müxtəlif floradan fərqli olaraq bu yerlərin faunası zəngin deyildir.

Bircinsli səhra step xarakteri daşıyan şərqi Zaqafqaziya öz faunası etibarilə Orta Asiya səhralarına çox oxşardır. Məsələn, burada ceyran, qəşəng dovdaq, manul pişiyi, step pişiyi və bir sıra Orta Asiya kərtənkələləri yaşayırlar.

Nəhayət, Şərqi Zaqafqaziyanın ən cənub-şərq bucağı olan Talış subtropik xarakterli çeşid bitki örtüyü ilə örtülü olub çox yaxşı nəzərə çarpan cənub tipli faunaya malikdir.Məsələn,oxlu kirpi ancaq burada yaşayır,bundan başqa burada pələng hələ qalmışdır, daha çox miqdarda leopardlar vardır.

Talış aranlığı üçün meşə faunasından başqa bataqlıq və xüsusən qamışlıq faunası da xarakterdir.Xəzərin cənub-qərb bucağında çox bqyük miqdarda suda suda üzən quşlar qışlayır.Zaqafqaziyanın bu kiçik hissəsi Xəzər dənizinin cənub sahillərininyalnız ən çimal-qərb hissəsidir ki, bu sahillər qzünün iqlimi və bitki örtüyünün xarakterinə görə qara dəniz sahillərinə müvafiqdirlər.

**Qafqaz faunasinin mənşəyi.**Qafqazda endemizmin çox inkişaf etməsi onunla izah olunur ki,buzlaşma dövründən çox əvvəl Böyük Qafqaz sıra dağları hər tərəfdən dənizlə əhatə olunmuş adadan ibarət idi.Ancaq çox sonra (miotsenin axırında) Mərkəzi Zaqafqaziyanin qalxması sayəsində bu ada Qərbi Asiya ilə birləşir və Qərbi Avropa dağlarından Qərbi asiyaya qədər başdan-başa yayılmış heyvanların buraya keçməsi mümkün olur.Qara dəniz ilə Xəzər dənizinin şimal hissələrini birləşdirən və Qafqazı Avropadan ayıran boğaz isə nəinki bütün buzlaşma dövrü müddətində,hətta daha sonralara qədər qalmışdır.Buna görə də Asiyadan Xəzər və Qara dənizin şimal sahilləri boyu qərbə tərəf hərəkət edən heyvanlar və şimaldan cənuba doğru yayılmaqda olannövlər Qafqaza keçə bilməmişlər.Daha sonralar qara dəniz-Azov stepləri özlərinin hazirkı faunası ilə birlikdə tamamilə əmələ gəldiyi zaman Şimali Qafqaz su atından qalxır və Qafqaz bərzəx şəklini alır, bu zaman Şimali Qafqazın qərb yarım hissəsinə step faunası,şərq yarımhissəsinə isə səhra, yəni Orta Asiya faunası keçir.Ehtimal, daha sonra qismən dənizin çəkilməsi və qismən böyük çayların ( Kürün və Arazın) gətirdikləri yığıntıların sayəsində Şərqi Zaqafqaziyanın stepləri əmələ gəlir ki, buraya cənubdan səhra faunası və həmçinin Xəzər dənizinin cənubi ilə keçib gələn Orta Asiya formaları keçirlər.

**Kopet-Dağ.** Alçaq səhra sıra dağları olan Kopet –Dağın ancaq sulu dərələri enliyarpaqlı meşələrlə örtülüdür.Kopet-Dağ Orta Asiyada yerləşirsə də ancaq öz faunası ilə Orta Asiyanın şərq hissəsi dağlarından fərqlənir və Zaqafqaziya dağlarına yaxındır.Burada Kopet-Dağ ilə Zaqafqaziya üçün ümumi olan və Orta Asiyanın başqa hissələrində olmayan aşağıdakı heyvanlar yaşayır:leopard,qaya keçisi, Qafqaz nəcib maralı, süleysin. Xəzər uları, sürünənlərdən isə Qafqaz

aqaması və zeytuni təlxə.Kopet-Dağın Zaqafqaziya ilə olan belə yaxınlığı onunla izah edilir ki, bu ölkələrin hər ikisinin faunalarının xeyli hissəsi İran dağlarından keçmişdir.